# Kinomuzun "sənət alpinisti"

**Kinorejissor, təsvir rejissoru, ssenarist, kinoprodüser, Əməkdar incəsənət xadimi, Azərbaycan Professional Kinorejissorlar Gildiyası İdarə Heyətinin sədri, Avropa Kino Akademiyasının üzvü Hüseyn Mehdiyev ömrünün 80-ci ilinin zirvəsində "sənət alpinisti" kimi məğrur görünür.**

Hüseyn Mahmud oğlu Mehdiyev 1945-ci il martın 19-da anadan olub. Moskvada Ali Ssenaristlər Kurslarının ilk məzunlarından olan böyük qardaşı Tofiq Mahmudun təsiri ilə kinoya könül verən Hüseyn bu barədə kitabları əlindən yerə qoymur, filmlərə baxmaqdan doymurdu. Rəssam qardaşı Rafiq Mehdiyevin isə onun vizual aləminin və estetikasının formalaşmasında böyük rolu olub. Beləcə, gələcək tale yolu müəyyənləşib. Yaşadıqları Bakı mühiti də onu sənətə ömürlük bağlayıb. Azərbaycan Politexnik İnstitutunda və Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alıb. Əvvəlcə ölkənin qəzet və jurnallarında, əsasən "Qobustan" və "Ulduz" dərgilərində fotojurnalistika ilə məşğul olub. "Fotopoeziya" və "Musiqi etüdləri" adlı fotokitabları nəşr edilib.

Sonra Hüseyn Mehdiyev "Azərbaycanfilm" kinostudiyasında təsvir rejissoru kimi fəaliyyətə başlayır. 1984-cü ildən həm də rejissor kimi fəaliyyət göstərir. Onun yaratdığı filmlər bir çox beynəlxalq kinofestivallarda (Berlin, Madrid, Sankt-Peterburq, Moskva, Ankara, Vankuver, Daşkənd, Qahirə və s.) iştirak edir.

Bakının həndbolçu qızları haqqında 1978-ci ildə çəkilmiş "Dissonans" sənədli filminin dinamik kadrları, qələbə uğrunda gərgin mübarizənin özəl anları indi də gözlərim önündə canlanır. Ekrandan bir anlıq belə göz çəkmək, hətta nəfəs dərmək belə mümkün deyildi. Azərbaycanın idman şərəfini layiqincə qoruyan qızlar bu film-reportajda əsl fədakarlar kimi təqdim edilirdi. Müəlliflərin kimlər olduğunu bilmək üçün səbirsizliklə sonluq titrlərini gözlədim. Nəhayət, imzalar yazıldı: rejissor Teymur Bəkirzadə, ssenari müəllifi Fərəməz Səfiyev və operator Hüseyn Mehdiyev. 20 il sonra dövlət televiziyasının "İdman proqramları" baş redaksiyasında çalışdığım vaxt verilişlərimin birini məhz "Dissonans"a həsr etdim.



Kinofestivallarda "Dissonans" qızıl və bürünc medallar alıb, eləcə də "Ancaq adanı özünlə apara bilməzsən" filmi baş mükafat, "Özgə vaxt" filmi "Ən yaxşı rejissor" və "Ən yaxşı gənc aktyor" nominasiyalarında mükafatlara layiq görülüb.

Hüseyn Mehdiyevin filmoqrafiyası "Şuşa", "Babamızın babasının babası", "İşgüzar səfər", "Qəm pəncərəsi", "Qoca palıdın nağılı", "Şəhərli biçinçilər", "Səhnədə keçən həyat", "Mirzə Fətəli Axundov", "Süni bənövşələr", "Şahid qız", "Özgə vaxt", "Məkanın melodiyası" kimi sənədli və bədii filmlərlə də zəngindir. O, 1993-cü ildən 2001-ci ilə qədər kinematoqrafiya sahəsini idarə edən "Azərkinovideo" İB-də baş direktor müavini vəzifəsində çalışıb. Bu zaman kinomuz üçün vacib olan iki qurumun: Dövlət Film Fondu və Kinorejissorlar Gildiyasının yaradılmasının təşəbbüskarı olub. "Beynəlxalq Audiovizual Festival" və "Qızıl Pəri" Peşə mükafatı layihələrinin müəllifi və rəhbəri olub.

Bu gün Hüseyn Mehdiyevin 80 yaşı tamam olur. Onu təbrik edir və haqqında yazdığımız qeydləri öz sözləri ilə bitiririk: "Kino adamının bir günü də kinosuz keçmir, ən azı, filmlərə baxır. Yaradıcılıq həmişə var. Bu, yaradıcı insanın, sənətkarın təbii varlığıdır".

***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti.- 2025.- 20 mart (№61).- S.17.